

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev səhiyyə sahəsində bir sıra qanun və fərmanlar imzaladı

2



«Qlobal dünya nizamına təhdidlər»

*Prezident İlham Əliyev bu mövzuda IX Qlobal Bakı Forumunun açılış mərasimində nitq söyləyib*

2



Milli Məclisin növbədənkənar sessiyasının iclasları keçirilib

4

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 11-12 (747) 30 iyun 2022-ci il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az

## İlham Əliyev: «Azərbaycan beynəlxalq arenada COVID-19 ilə mübarizədə fəal rol oynayan ölkələrdən biridir»




4

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ÜST Baş direktorunu qəbul edib



3

## 1 nömrəli Bakı Tibb Kollecinin 120 illiyi qeyd olunub



7



Azərbaycan Tibb Universitetində «Məzun günü» keçirildi

8

## Səhiyyə naziri: «Azərbaycanda meymunçiçəyi virusuna yoluxma halı qeydə alınmayıb»




9

### *Афоризм*

*Человек ценен, когда его слова совпадают с его действиями.*

*Оскар Уайльд*

## Azərbaycan Respublikasının səhiyyə işçilərinə fəxri adların verilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**«Əməkdar həkim»**

Əsgərov Sahib Abbasəli oğlu
Xəlilov Zaur Bəhmən oğlu
İsayev Elçin Həmid oğlu
Qədirova Nuriyə Baba qızı
Nəbiyeva Mahirə Əmir qızı

**«Əməkdar tibb işçisi»**

Abbasova Yəmən Məmməd qızı
Əliyeva Rəsmiyyə Calal qızı
Həziyeva Amalya Humay qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 16 iyun 2022-ci il*

## «Onkoloji yardım haqqında» və «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

*Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** «Onkoloji yardım haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 656; 2008, № 7, maddə 602; 2020, № 7, maddə 830, № 12 (I kitab), maddə 1425; 2021, № 8, maddə 895) 9.2-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

«9.2. Əlilliyi, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş onkoloji xəstələrin «Sosial müavinətlər haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sosial müavinət və (və ya) «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əmək pensiyası almaq hüququ vardır.».

**Maddə 2.** «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 272; 2019, № 11, maddə 1685; 2020, № 7, maddə 831; 2021, № 6 (I kitab), maddə 548, № 8, maddə 897) 9.3-cü maddəsindən «və əmək pensiyası almaq hüququ olmayan» sözləri çıxarılsın və həmin maddəyə «müavinət» sözündən sonra «və (və ya) «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əmək pensiyası» sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 13 may 2022-ci il.*

## Azərbaycan Respublikasının səhiyyə işçilərinin «Tərəqqi» medalı ilə təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər «Tərəqqi» medalı ilə təltif edilsinlər:

Abdulkərimov Vüqar Rəsul oğlu
Abdurahmanov Mehrab Nəhməd oğlu
Ağayev Səyavuş Əhliman oğlu
Camalov Ağaseyid Səbhan oğlu
Əliyeva Nailə Həsən qızı
Əliyeva Sevil Məmmədqulu qızı
Hacıyev Ramin İzzət oğlu
Hətəm-zadə Ellada Fazil qızı
İbrahimova Böyükxanım Rəcəb qızı
İmanova İsmət Cəfər qızı
İsmayılov Hikmət İbrahim oğlu
Qasımov Arif Qinyaz oğlu
Mirzəyeva Zenfira Astan qızı
Novruzov Əşrəf Murad oğlu
Pirəliyeva Həqiqət Novruz qızı
Rəhimov Afiq Allahverdi oğlu
Rəhimov İlqar Mustafa oğlu
Rəhimov Vidadi Hənnan oğlu
Süleymanova Kəmalə Tahir qızı
Şirinov İsmayıl Əlibrahim oğlu
Şirinov Vidadi Çərkəz oğlu
Zəkiyev Vadim Nurmət oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 16 iyun 2022-ci il.*

## Hərbi həkimlər təltif edildilər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında» 25 iyun 2022-ci il tarixli Sərəncam imzalayıb.

Sənədə əsasən, tibb xidməti polkovniki Firudin İsaxan oğlu Nəbiyevə «tibb xidməti general-mayoru» hərbi rütbəsi verilib.

Dövlət başçısının eyni tarixli «Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında» Sərəncamına əsasən, Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə təltif edilən hərbi qulluqçular arasında da hərbi həkimlər var. Belə ki, tibb xidməti leytenantı Əfəndiyev Adil Qədir oğlu 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə (ölümündən sonra), tibb xidməti polkovniki Hümbətov Müşfiq Mürsəl oğlu «Hərbi xidmətlərə görə» medalı ilə təltif olunub.

# «Qlobal dünya nizamına təhdidlər»

### *Azərbaycan Prezidenti İlham Əliyev bu mövzuda IX Qlobal Bakı Forumunun açılış mərasimində nitq söyləyib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə «Qlobal dünya nizamına təhdidlər» mövzusunda IX Qlobal Bakı Humanitar Forumu keçirilib.**




Dövlətimizin başçısı Forumun açılış mərasimində iştirak edib və nitq söyləyib.

Azərbaycan Prezidenti deyib ki, ötən ilin noyabrına təsadüf edən görüşdən sonra dünyada fundamental dəyişikliklər baş verib və hələ ki, proqnozlaşdırılması mümkün olmayan fəsadlarla müşayiət olunur: «Lakin dünyanın fərqli olacağı aydındır və o, artıq fərqlidir». Bildirib ki, təhlükəsizlik məsələləri beynəlxalq arenada gündəlikdə duran əsas məsələlərdən biridir, buna görə hər bir ölkə yeni yanaşmaların işlənib hazırlanması prosesinə, ilk növbədə, təhlükəsizlik tədbirləri ilə bağlı töhfə verməlidir. Eyni zamanda, Avropadakı cari vəziyyət barədə açıq müzakirələrin aparılması tələb olunur.

Azərbaycan Prezidenti gündəlikdə duran mövzulardan ərzaq böhranı ilə mübarizə, miqrantların potensial artımı ilə bağlı vəziyyət, 44-günlük müharibədən sonrakı dövrdə Qafqazda regional təhlükəsizliklə əlaqədar yanaşmalar və s. məsələlərə toxunub. Qeyd edib ki, enerji təhlükəsizliyi də qlobal gündəliyin aktual məsələlərindəndir. Azərbaycanın enerji resurslarına ehtiyac artmaqdadır.

Çıxışının sonunda Prezident İlham Əliyev Forumun işinə uğurlar arzulayıb.

Sonra Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **Vayra Vike-Freyberqa** çıxış edərək dünyada hazırkı geosiyasi vəziyyət haqqında danışıb, münaqişələrin aradan qaldırılması, müharibələrin baş verməməsi üçün beynəlxalq səviyyədə səyləri birləşdirməyin vacibliyini vurğulayıb.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail Serageldin** yaradılan şəraitə görə təşəkkür edib, bildirib ki, Nizami Gəncəvi Mərkəzi fərqli fikirləri dinləmək, təcrübəli və xoşməramlı insanların ideyalarını irəli sürmələri üçün azad məkandır.

Albaniya Prezidenti **İlir Meta** beynəlxalq səviyyədə problemlərin ədalətli həlli üçün Birləşmiş Millətlər Təşkilatının rolunun gücləndirilməsinin əhəmiyyətini qeyd edib. O, müharibələrin baş verməməsi üçün dünya güclərini beynəlxalq səylərini artırmağa çağırıb. İlir Meta pandemiya ilə bağlı imkanları birləşdirməyin, beynəlxalq səviyyədə inteqrasiyanı gücləndirməyin və əməkdaşlığı genişləndirməyin vacibliyini vurğulayıb.

Forumda çıxış edən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru **Tedros Adhanom Gebreyesus** müzakirələrdə iştirakından məmnunluğunu bildirib. Dünyada peyvəndləmə ilə bağlı xeyli iş görülsə də, bunun hələ də yetərli olmadığını vurğulayan Tedros Gebreyesus beynəlxalq səhiyyə sisteminin əsaslı şəkildə təkmilləşdirilməsi zərurətini vurğulayaraq deyib: «Ümumdünya Səhiyyə Təşkilatı olaraq, pandemiya ilə mübarizədə Azərbaycanın gördüyü işlər yüksək qiymətləndirilməlidir. Mən Azərbaycanda yoluxma və ölüm sayının pandemiyanın əvvəlindən bu yana ən aşağı həddə olduğunu görməyə çox şadam».

ÜST-nin Baş direktoru müharibələrin ağır nəticələrinin dünya səhiyyəsinə də mənfi təsirlər göstərdiyini qeyd edib. Bildirib ki, bu baxımdan konkret tədbirlər həyata keçirilməlidir.

BMT-nin Cenevrə ofisinin baş direktoru **Tatyana Valovaya** dünyanı narahat edən məsələlərin müzakirəsinə xüsusi həssaslıqla yanaşdığı üçün Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə, iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi və digər bu kimi məsələlərin müzakirəsi üçün yaratdığı şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıq edib. Pandemiyanın dünyadakı sosial bərabərsizliyi daha qabarıq üzə çıxardığını və bu problemin uğurla həlli üçün beynəlxalq ictimaiyyətin səylərini gücləndirməsinin vacibliyini qeyd edən Tatyana Valovaya bu istiqamətdə BMT-nin üzərinə düşən vəzifələrin öhdəsindən gəlmək üçün görülən işlərdən danışıb. O, COVID-19-un planetdə yaratdığı fəsadların aradan qaldırılması istiqamətində görüləcək bir çox işlərin olduğunu bildirib.

Forumda həmçinin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri **Şefik Caferoviç,** Gürcüstan Prezidenti **Salome Zurabişvili,** Türkiyənin sabiq Baş naziri **Binəli Yıldırım,** Ərəb Liqasının səkkizinci baş katibi, Misirin sabiq xarici işlər naziri **Əhməd Əbul Qeyt** çıxış edərək, qlobal gündəlikdə duran aktual məsələlərlə bağlı fikirlərini bölüşüblər.

Sonra Forum işini panel iclaslarla davam etdirib.

# Prezident İlham Əliyev ÜST Baş direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesusu qəbul edib.**

Görüşdə dövlət başçısı Azərbaycana səfərinə və Qlobal Bakı Forumunda iştirak etdiyinə görə Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoruna təşəkkürünü bildirib. Azərbaycan Prezidenti COVID-19-a qarşı mübarizədə ÜST-nin Azərbaycana verdiyi tövsiyələrin və ölkəmizlə əməkdaşlığının yüksək qiymətləndirildiyini qeyd edib.



Tedros Adhanom Gebreyesus Azərbaycana səfərindən məmnunluğunu bildirib və COVID-19-a qarşı uğurlu mübarizənin aparılmasına, ölkəmizin bu sahədə milli, regional və beynəlxalq səviyyədə həyata keçirdiyi fəaliyyətə görə təbriklərini çatdırıb, eyni zamanda, pandemiya dövründə Azərbaycanın ÜST-yə verdiyi könüllü maliyyə töhfələrinə və dəstəyinə görə təşəkkürünü bildirib.

Qonaq Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə Ümumdünya Səhiyyə Təşkilatının sıx əməkdaşlıq etdiyini və Anlaşma Memorandumunun imzalandığını vurğulayıb.

Prezident İlham Əliyev Azərbaycanda COVID-19 ilə bağlı vəziyyətin çox yaxşı olduğunu, yoluxma sayının ən aşağı səviyyəyə düşdüyünü, vəziyyətin tam nəzarətdə saxlanıldığını deyib, əksər məhdudiyyətlərin aradan qaldırıldığını və normal həyata qayıdıldığını qeyd edib. Ölkə rəhbəri COVID-19-a qarşı mübarizə aparılmasına dair dövlətimizin siyasətinin vətəndaşlar tərəfindən böyük etimadla qarşılandığını və əhalinin pandemiya ilə mübarizə qaydalarına riayət etməsini məmnunluqla bildirib. Dövlət başçısı işğaldan azad olunmuş ərazilərimizdə səhiyyə infrastrukturunun qurulması layihələri ilə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın vacibliyini qeyd edib.

Tedros Adhanom Gebreyesus Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində əldə etdiyi uğurlara görə bir daha təbriklərini çatdırıb.

Görüşdə səhiyyə naziri Teymur Musayev də iştirak edib.

## «Əhalinin sağlamlığının qorunması haqqında» və «Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq, «Hərbi qulluqçuların statusu haqqında», «Əhalinin sağlamlığının qorunması haqqında», «Yol hərəkəti haqqında», «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında», «Avtomobil yolları haqqında», «Özəl tibb fəaliyyəti haqqında», «Dövlət qulluğu haqqında», «Psixiatriya yardımı haqqında», «Onkoloji yardım haqqında» və «Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2020-ci il 20 noyabr tarixli 200-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin ikinci hissəsində «müdafiə sistemi» sözləri «xidmət» sözü ilə əvəz edilsin.

**Maddə 2.** «Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikası Qanununun 35.1-ci maddəsində, 36.2-ci maddəsinin birinci və ikinci cümlələrində «tibbi yardım» sözləri «tibbi-sanitariya yardımı» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 may 2022-ci il*

## «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə»nin 8.20-1-ci bəndi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 10 iyun 2022-ci il*

## «Əhalinin sağlamlığının qorunması haqqında», «Özəl tibb fəaliyyəti haqqında», «Lotereyalar haqqında» və «Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 411-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

«Tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yalnız nağdsız qaydada həyata keçirilir.».

**Maddə 2.** «Özəl tibb fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

«Özəl tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yalnız nağdsız qaydada həyata keçirilir.».

**Maddə 3.** «Lotereyalar haqqında» Azərbaycan Respublikasının Qanununa aşağıdakı məzmunda 6.10-cu maddə əlavə edilsin:

«6.10. Bu Qanunla müəyyən edilmiş ümumi məbləği üç min manatdan artıq olan uduşlar və oyunlarda iştirakla bağlı pul ödənişləri (pul qoyuluşu) ilə bağlı hesablaşmalar üzrə ödənişlər «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yalnız nağdsız qaydada həyata keçirilir.».

**Maddə 4.** «Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun 54-cü maddəsinin mətni 54.1-ci maddə hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda 54.2-ci maddə əlavə edilsin:

«54.2. Bu Qanunla müəyyən edilmiş ümumi məbləği üç min manatdan artıq olan uduşlar (mükafatlar) və oyunlarda iştirakla bağlı pul ödənişləri (pul qoyuluşları) ilə bağlı hesablaşmalar üzrə ödənişlər «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yalnız nağdsız qaydada həyata keçirilir.».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 27 may 2022-ci il*

## Baş nazir Əli Əsədov ÜST-nin Baş direktoru ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesusla görüşüb.**



AZƏRTAC bildirir ki, görüşdə IX Qlobal Bakı Forumunun əhəmiyyəti vurğulanıb, Azərbaycan ilə ÜST arasında səmərəli əməkdaşlıq məmnunluqla qeyd edilib. Azərbaycanda səhiyyə sistemində aparılan köklü islahatlardan, pandemiya ilə mübarizədə görülən işlərdən söhbət açılıb. Bildirilib ki, xəstəliyin ilk günlərindən həyata keçirilən ardıcıl tədbirlər sayəsində bu gün ölkədə COVID-19-la bağlı vəziyyət müsbətdir, çox az sayda məhdudiyyət qalıb.

Baş nazir Əli Əsədov ÜST-nin COVID-19-a qarşı mübarizədə Azərbaycana göstərdiyi davamlı dəstəyə görə təşəkkürünü bildirib.

Bu sahədə Azərbaycanın beynəlxalq əməkdaşlığa verdiyi töhfələr, birbaşa və ya ÜST vasitəsilə 80-dək ölkəyə göstərilən maliyyə və humanitar yardımı qeyd olunub. Azərbaycan Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilən xüsusi sessiyasının, Türk Şurasının fövqəladə Zirvə görüşünün keçirildiyi, BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə «COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi» adlı qətnamənin qəbul edildiyi vurğulanıb. Həmçinin «vaksin millətçiliyi»nə və vaksinlərdən istifadə ilə bağlı qeyri-bərabərliyə qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsinin vacibliyi qeyd olunub.

Tedros Gebreyesus Azərbaycanın ÜST-yə bütün sahələrdə, o cümlədən maliyyə sahəsində etdiyi yardımı yüksək qiymətləndirib, pandemiya başlayandan xəstəliklə mübarizədə qlobal səylərin səfərbər edilməsi üçün irəli sürdüyü təşəbbüslərin əhəmiyyətini vurğulayıb.

Görüşdə Azərbaycan Respublikası ilə ÜST arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Prezident İlham Əliyev: «Azərbaycan beynəlxalq arenada COVID-19 ilə mübarizədə fəal rol oynayan ölkələrdən biridir»

***Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransı keçirilir***

**Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransı işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib və nitq söyləyib.

Dövlət başçısı çıxışında xatırladıb ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi COVID-19 pandemiyası vaxtına təsadüf edib: «Qoşulmama Hərəkatında sədrliyimiz COVID-19 ilə üst-üstə düşdü. Azərbaycan beynəlxalq arenada bu xəstəliklə mübarizədə fəal rol oynayan ölkələrdən biri idi. Biz Qoşulmama Hərəkatının onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsü ilə çıxış etdik, onu 2020-ci ilin may ayında keçirdik və bu, pandemiya ilə mübarizə ilə bağlı yaxşılaşmada səylərimizin Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən səfərbər edilməsi üçün ilkin addımlardan biri idi. Bunun nəticəsində biz 2020-ci ilin dekabr ayında uğurla keçirilmiş, COVID-19 ilə mübarizəyə həsr edilmiş BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması ilə bağlı üzv dövlətlər tərəfindən dəstəklənmiş təşəbbüsü irəli sürdük.

Bizim səylərimiz təkcə həmrəyliyin gücləndirilməsi və dəstəyin təmin edilməsinə yönəlməmişdi, eyni zamanda, ölkələrə dəstək, tibbi və humanitar yardımla bağlı bizim məlumat bazasından




istifadə etməyə başlamış Ümumdünya Səhiyyə Təşkilatı üçün də faydalı oldu.

Beləliklə, üzv dövlətlərdə yaratdığımız məlumat bazası bu pandemiya ilə və gələcəkdə baş qaldıra biləcək istənilən digər xəstəliklə mübarizədə çox faydalı idi və faydalı olmağa davam edir.

Biz 80-dən çox ölkəyə maliyyə və humanitar yardımı etmişik. Həmçinin biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində ianə etmişik və bu vəsaitin yarısı Qoşulmama Hərəkatının üzv dövlətlərinə birbaşa ayrılmışdır.

Beləliklə, COVID-19 ilə mübarizəyə yanaşmamızla bağlı səylərimiz, zənnimcə, çox mühüm qlobal təsirə malik olmuşdur. Çünki biz «peyvənd millətçiliyi»nə qarşı açıq şəkildə etirazını bildirən ölkələrdən biri idik. Hamımızın xatirindədir ki, pandemiyanın ilk günləri və aylarında bəzi zəngin ölkələr onlara lazım olduğundan ola bilsin üç və ya dörd dəfə çox peyvəndləri tədarük edir və bununla da digər ölkələri peyvəndlərə çıxışdan məhrum edirdi. Biz hamımız digər ölkələrin çıxılmaz vəziyyətdə olduğu bir vaxtda zəngin ölkələrin peyvəndlərin mütləq əksəriyyətindən istifadə etdiyinin şahidi olduq. Buna görə də bizim «peyvənd millətçiliyi»nə qarşı mübarizəmiz Birləşmiş Millətlər Təşkilatı tərəfindən də dəstəklənmişdir. Hesab edirəm ki, bu da vaksinlərin ədalətli paylanılmasına mühüm təsir göstərmişdir.

Başqa sözlə, Azərbaycan həmişə regional mövzular və qlobal məsələlərlə bağlı öz mövqeyini nümayiş etdirir. Əlbəttə ki, Qoşulmama Hərəkatının sədri olaraq biz ədalətsizliyə, beynəlxalq hüququn pozulmasına, müxtəlif münaqişələrə qarşı sərgilənən selektiv yanaşmaya və ayrı-seçkiliyə qarşı mübarizə aparmağa davam edəcəyik. Biz həmçinin Qoşulmama Hərəkatının üzv dövlətlərinin böyük dəstəyinin də şahidi olduq. Qeyd etdiyim kimi, Qoşulmama Hərəkatına sədrliyin verilməsi və sonra da onun uzadılması ilə bağlı yekdil qərar ölkələrin Azərbaycana olan münasibətini aydın nümayiş etdirirdi».

# Milli Məclisin növbədənkənar sessiyasının iclasları keçirilib

**Milli Məclisin sədri Sahibə Qafarova 77 deputatın tələbi ilə iyun ayında parlamentin növbədənkənar sessiyasının çağırılması haqqında sərəncam imzalayıb.**

Sessiya işini gündəliyə daxil edilmiş məsələlər bitənədək davam etdirəcək.

Növbədənkənar sessiyanın ilk iclasında gündəlik qəbul olunub və gündəlikdəki məsələlər müzakirə edilib.

İkinci oxunuşda olan qanun layihələrinin müzakirəsi zamanı Milli Məclisin



sədri bildirib ki, sonda baxılan üç məsələ Prezident İlham Əliyevin bir məktubu ilə parlamentə təqdim olunub və mahiyyətcə bir-birinə yaxındır. Bu qanun layihələrində nəzərdə tutulan dəyişikliklər «İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında» Qanundan irəli gəlir.

Gündəliyin 14-cü və 15-ci məsələləri – Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrinin ikinci oxunuşu ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Bildirilib ki, insan orqan və toxumalarının donorluğu və transplantasiyası ilə bağlı qanunvericiliyin tələblərinin pozulması ilə əlaqədar təklif olunan inzibati və cinayət məsuliyyətini ehtiva edən dəyişikliklər barədə əvvəlki oxunuşda ətraflı məlumat verilib və qanun layihələri ilə bağlı heç bir təklif, irad daxil olmayıb.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Əhalinin sağlamlığının qorunması haqqında», «Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında», «Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında», «İnsan alverinə qarşı mübarizə haqqında» və «Reklam haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə danışaraq bildirib ki, bu dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır. Əhliman Əmiraslanov qanun layihəsinin birinci oxunuşunda deputatların qanunun icrası ilə bağlı səsləndirdikləri fikirlərin müqabilində bu sahədə bu günədək görülən işlər barədə məlumat verib.

Əhliman Əmiraslanov qeyd edib ki, «İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında» Qanunun tətbiqi ilə əlaqədar Səhiyyə Nazirliyinin nəzdində Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi yaradılıb, eyni zamanda, beyin ölümü diaqnozunun qoyulması da daxil olmaqla müvafiq sənədlər zərfi hazırlanıb. Həmçinin orqan və toxumaların transplantasiyasını həyata keçirəcək klinikaların və mütəxəssislərin hazırlığı ilə bağlı digər tədbirlər də planlaşdırılır.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin rəhbərlik etdikləri komitələrin dəyişikliklərlə bağlı müsbət rəyləri və deputat Aydın Hüseynovun fikirləri dinlənildikdən sonra təqdim olunan hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclasında həmin qanun layihələrinə üçüncü oxunuşda baxılıb.

«İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında» Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrini Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov təqdim edib. Komitə sədri Əhliman Əmiraslanov dəyişikliklərlə bağlı Səhiyyə komitəsinin müsbət rəyini diqqətə çatdırıb.

Sonra gündəlikdəki növbəti sənəd – «Əhalinin sağlamlığının qorunması haqqında», «Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında», «Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında», «İnsan alverinə qarşı mübarizə haqqında» və «Reklam haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında məlumat verilib, İnsan hüquqları, İqtisadi siyasət, sənaye və sahibkarlıq, Səhiyyə komitələrinin müsbət rəyləri səsləndirilib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# Azərbaycan xarici işlər naziri ÜST-nin Baş direktoru ilə görüşüb

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov IX Qlobal Bakı Forumunda iştirakı çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, tərəflər ÜST ilə Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərini yüksək qiymətləndiriblər.

Nazir Ceyhun Bayramov ölkəmizin ÜST ilə əməkdaşlığa yüksək önəm verdiyini qeyd edib. Bu günədək ÜST-nin ölkəmizdə həyata keçirdiyi layihələrin, habelə Azərbaycanın pandemiya ilə mübarizədə irəli sürdüyü təşəbbüslərin əhəmiyyəti vurğulanıb.

Baş direktor Tedros Gebreyesus Azərbaycanın COVID-19 ilə mübarizədə çoxsaylı ölkələrə göstərdiyi yardımı və qlobal sağlamlığa verdiyi töhfəni minnətdarlıqla qeyd edib.

Nazir Ceyhun Bayramov qarşı tərəfə münaqişədən sonrakı mərhələdə bölgədə aparılan quruculuq işləri və keçmiş məcburi köçkünlərin öz evlərinə təhlükəsiz geri dönüşünü təmin etmək üçün atılan addımlar barədə məlumat verib.

ÜST-nin rəhbəri Azərbaycana müvafiq dəstəyi göstərməyə hazır olduğunu bildirib.

Görüşdə həmçinin beynəlxalq gündəliyin aktual məsələləri üzrə fikir mübadiləsi aparılıb.

# Tibb ictimaiyyətinin nümayəndələri Ulu öndər Heydər Əliyevin və şəhid həkimlərin məzarlarını ziyarət ediblər



**Ümummilli lider Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı Sərəncama əsasən, hər il iyun ayının 17-si Azərbaycanda Tibb İşçiləri Günü kimi qeyd olunur.**

Tibb işçilərinin peşə bayramı ilə əlaqədar səhiyyə naziri Teymur Musayev başda olmaqla ölkəmizin tibb ictimaiyyətinin nümayəndələri Fəxri xiyabanı ziyarət ediblər.

Peşə bayramını qeyd edənlər səhiyyəyə daim qayğı ilə yanaşan Ümummilli lider, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Tibb ictimaiyyətinin nümayəndələri görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, böyük alim, ictimai-siyasi xadim, səhiyyə təşkilatçısı Əziz Əliyevin və tanınmış elm xadimi Tamerlan Əliyevin də məzarları üzərinə tər çiçəklər düzüblər.

Daha sonra İkinci Fəxri xiyabanda Vətən müharibəsi şəhidlərinin məzarları ziyarət edilib. Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş həkimlərin əziz xatirəsi anılıb, məzarları üzərinə tər güllər düzülüb.

# Azərbaycan səhiyyə naziri ilə ÜST Baş direktoru görüşüb

**IX Qlobal Bakı Humanitar Forumu çərçivəsində Azərbaycan səhiyyə naziri Teymur Musayevlə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus arasında görüş keçirilib.**




Nazirliyin mətbuat xidmətindən məlumat verilir ki, Teymur Musayev ölkəmizə səfərinə və Qlobal Bakı Forumunda iştirak etdiyinə görə ÜST-nin Baş direktoruna təşəkkürünü bildirib, COVID-19 pandemiyasına qarşı mübarizədə bu nüfuzlu səhiyyə təşkilatının Azərbaycanla uğurlu əməkdaşlığını, eyni zamanda, qurumun verdiyi tövsiyələrin vacibliyini vurğulayıb.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Tedros Gebreyesus ölkəmizin COVID-19-a qarşı mübarizə üzrə milli, regional və beynəlxalq səviyyədə həyata keçirdiyi uğurlu fəaliyyəti yüksək qiymətləndirib. ÜST rəhbəri həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə Ümumdünya Səhiyyə Təşkilatının sıx əməkdaşlıq etdiyini, bu barədə Anlaşma Memorandumunun imzalandığını vurğulayıb.

Sonda tərəflər qarşılıqlı maraq kəsb edən digər məsələlərə dair fikir mübadiləsi aparıblar.

# Səhiyyə Nazirliyində Qlobal Fondun regional meneceri ilə görüş olub

**Səhiyyə Nazirliyində QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fondun Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə regional meneceri Dumitru Laticevski ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirilir ki, nazir Teymur Musayev Azərbaycanın Qlobal Fond ilə əlaqələrə və əməkdaşlığa hər zaman önəm verdiyini vurğulayıb. Onun sözlərinə görə, 2005-ci ildən QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fond Azərbaycanda vərəm əleyhinə fəaliyyətin maliyyələşdirilməsində yaxından iştirak edir: «Hazırda Qlobal Fondun layihələri davamlı olaraq Azərbaycanda həyata keçirilir və vərəmlə mübarizəyə böyük töhfə verir».

Nazir gələcəkdə əməkdaşlığın daha da inkişaf edəcəyinə ümidvar olduğunu deyib.

Öz növbəsində Dumitru Laticevski Qlobal Fond ilə Azərbaycan arasında səmərəli əməkdaşlığı vurğulayaraq, ölkəmizin səhiyyə sistemində aparılan islahatları dəstəklədiyini bildirib. O həmçinin qeyd edib ki, Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzində Qlobal Fondun dəstəyi ilə Azərbaycanda insanın immunçatışmazlığı virusunun (İİV) təmasdan öncə profilaktikası (TÖP - PrEP) adlı pilot layihənin icrasına başlanılıb: «Bu yeni metod riskli təmaslar zamanı İİV-ə yoluxmanın qarşısını almaqdan ötrü sağlam insanlar tərəfindən antiretrovirus dərman vasitələrindən istifadəni nəzərdə tutur».

Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə əməkdaşlığın mövcud vəziyyəti və potensial inkişaf imkanları müzakirə olunub.

# Asiya İnkişaf Bankı Azərbaycan səhiyyə sistemində aparılan islahatları dəstəkləyir

**Səhiyyə Nazirliyində Asiya İnkişaf Bankının Qərbi və Mərkəzi Asiya Departamentinin Sosial sektor bölməsinin direktoru Rie Hiraoka ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətinin verdiyi məlumata görə, görüş zamanı qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev xatırladıb ki, ölkəmiz 1999-cu ildən etibarən Asiya İnkişaf Bankı ilə əməkdaşlıq edir: «Azərbaycan və Asiya İnkişaf Bankı arasında əlaqələr çoxşaxəlidir. Eyni zamanda, birgə regional əməkdaşlıq hər il yüksələn xətlə inkişaf edir».

COVID-19 pandemiyası mövzusuna toxunan səhiyyə naziri yeni növ koronavirus infeksiyasının mənfi təsirinin azaldılması məqsədilə Asiya İnkişaf Bankı tərəfindən ölkəmizə texniki yardımın ayrıldığını vurğulayıb, yardıma və dəstəyə görə minnətdarlığını bildirib.

Teymur Musayev gələcəkdə əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu qeyd edib.

Öz növbəsində Rie Hiraoka bildirib ki, Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci İllik Toplantısının 2015-ci ildə Bakıda uğurla keçirilməsi qarşılıqlı etimad və hörmət üzərində qurulmuş tərəfdaşlığımızın bariz nümunəsidir. Asiya İnkişaf Bankı ilə Azərbaycan arasında səmərəli əməkdaşlığı vurğulayan Rie Hiraoka qurumun ölkəmizin səhiyyə sistemində aparılan islahatları dəstəklədiyini bildirib.

Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə əməkdaşlığın mövcud vəziyyəti və potensial inkişaf imkanları müzakirə olunub.

# «Qlobal səhiyyənin idarə edilməsi»

***Bakı Forumunun bu və digər mövzularda panel iclaslarında səhiyyə ilə bağlı məsələlər müzakirə olunub***

**IX Qlobal Bakı Humanitar Forumu çərçivəsində keçirilmiş və hazırda dünyanı narahat edən müxtəlif aktual mövzulara həsr olunmuş panel iclaslarda səhiyyə ilə bağlı bəzi məsələlərə də toxunulub.**

Forumun **«Qlobal təhlükəsizliyin inşası və sülh üçün perspektivlər»** mövzusunda panel iclasında beynəlxalq təsisatların fəaliyyətindən, bunun effektivliyinin artırılması üçün görülməli işlərdən danışan Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri **Hikmət Hacıyev** bildirib ki, çoxtərəflilik inkişaf etdirilməli, BMT-nin Nizamnaməsi yenidən işlənib hazırlanmalıdır. Prezidentin köməkçisi vurğulayıb: «Qoşulmama Hərəkatını təsis edənlərə öz minnətdarlığımızı bildiririk. Azərbaycan bu qurumun sədri kimi COVID-19 pandemiyası ilə mübarizədə əsl nümunə göstərdi».

Humanitar Forumun **«Qloballaşma və artan bərabərsizliklər»** mövzusunda panel iclasında da bir sıra natiqlər səhiyyə ilə bağlı məqamlara toxunublar.

BMT-nin Ukrayna üzrə sabiq rezident əlaqələndiricisi Fransis O'Donnellin moderatorluğu ilə keçirilən panel iclasında Dünya Bankının sabiq vitse-prezidenti **Mats Karlsson** qloballaşmanın deyil, yanlış idarəçiliyin bərabərsizliyə gətirdiyini bildirərək deyib ki, BMT, Ümumdünya Ticarət Təşkilatı və Ümumdünya Səhiyyə Təşkilatı təsisatları arasında əlaqələndirmə qloballaşma baxımından praktiki əhəmiyyət kəsb edir.

Ekvadorun sabiq Prezidenti **Rosaliya Arteqa Serrano** çıxışında dünyada bərabərsizliyin təhsilə və sağlamlığa əngəl törətdiyini qeyd edib.

Macarıstanın BMT və UNESCO üzrə sabiq səfiri, UNESCO-nun 36-cı Baş Konfransının prezidenti, «Women4 Diplomacy»nin qurucusu **Katalin Boqyay** dünyada qadınlarla bağlı mövcud bərabərsizliklər barədə danışıb, cəmiyyətin buna etirazla yanaşmalı olduğunu deyib. K.Boqyay qadınların pandemiya ilə mübarizədə çox fəal iştirak etdiklərini xüsusi vurğulayıb.

*(Davamı 6-cı səhifədə)*

# «Qlobal səhiyyənin idarə edilməsi»

**_Bakı Forumunun bu və digər mövzularda panel iclaslarında səhiyyə ilə bağlı məsələlər müzakirə olunub_**

*(Əvvəli 5-ci səhifədə)*

Latviyanın sabiq Baş naziri **Laimdota Strauyuma** COVID-19 pandemiyasının, dünyada baş verən münaqişələrin böyük fərqliliklər, bərabərsizliklər yaratdığını, yoxsulluğa yol açdığını bildirib. Qeyd edib ki, cəmiyyətin qarşısında duran əsas vəzifə qeyri-bərabərliyin genişlənməsinə qarşı tədbirlər görməkdir.

IX Qlobal Bakı Forumunun ayrıca bir panel iclası **«Qlobal səhiyyənin idarə edilməsi»** mövzusuna həsr olunub.

Bosniya və Herseqovinanın sabiq Baş naziri **Zlatko Laqumdziyanın** moderatorluğu ilə keçirilən panel iclasında «Dünyada pandemiya ilə mübarizə təcrübəsindən hansı əsas dərslər götürülə bilər?», «Sosial media dövründə «vaksin tərəddüdü»nün yayılmasına qarşı necə mübarizə aparırıq?», «Erkən xəbərdarlıq sistemlərinin, habelə vaksinlər, terapevtik vasitələr, fərdi mühafizə vasitələri və respiratorların ötürülməsi, izlənməsi və paylanmasının daha yaxşı qlobal koordinasiyasına necə nail ola bilərik?», «ÜST-nin COVID-19 alətlərinin əlçatanlığının sürətləndirilməsini, eləcə də COVAX-ın dövlətlər tərəfindən təcili və tam şəkildə maliyyələşdirilməsini və bu kimi gecikmələrin gələcəkdə baş verməməsini necə təmin edə bilərik?», «Əksər həssas qrupların ehtiyaclarının düzgün və sürətli şəkildə qarşılanmasını necə təmin edə bilərik?», «COVID-19 pandemiyasından sonra «daha yaxşı bərpa et» prinsipini rəhbər tutduğumuza görə yenidənqurma proqramlarının transformativ yaşıl xarakterini necə vurğulaya bilərik?», «Bütün dünyada müxtəlif icmalar daxilində dayanıqlılığı təmin etməyimizlə əlaqədar bütün ölkələrin vətəndaşları üçün əlçatanlığı necə təmin edə bilərik?» kimi suallar ətrafında müzakirələr aparılıb.



Zlatko Laqumdziya pandemiya dövründə Azərbaycanın koronavirusa qarşı mübarizədə göstərdiyi yardımları xatırladıb və buna görə Prezident İlham Əliyevə təşəkkür edib.

Açılış nitqi ilə çıxış edən Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru **Tedros Adhanom Gebreyesus** dünyada COVID-19-a yoluxma sayının kəskin azaldığını və pandemiyanın geridə qalmaq üzrə olduğunu deyib.

Onun sözlərinə görə, bir çox ölkələrdə testlərdə pozitiv nəticələrin payı azalıb. Lakin aşağı gəlirli ölkələrdə bu, problem olaraq qalmaqdadır. «Pandemiyanın sona çatması üçün insanların vaksinasiyadan keçməsi çox vacibdir. Pandemiyadan dərs çıxarmalı və növbəti belə hallara hazır olmalıyıq. COVID-19 pandemiyası təşvişlərindən birdəfəlik çıxmalıyıq. ÜST dünyada sağlamlığın təmin olunması üçün 300-dən çox təklif verib. Burada beynəlxalq alətlərin işləməsi mühüm əhəmiyyət kəsb edir. Çünki heç bir ölkə belə bir vəziyyətlə təkbaşına mübarizə apara bilməz. Ölkələr ilkin tibbi yardım sistemini səmərəli təşkil etməlidirlər», — deyən Baş direktor Ümumdünya Səhiyyə Təşkilatının ehtiyacı olan dövlətlərə tibbi yardım göstərilməsi üçün şəbəkə yaradılması üzərində işlədiyini də diqqətə çatdırıb. ÜST-nin büdcəsinin 50 faizə qədər artırıldığını bildirən Tedros Gebreyesus bunun təşkilatın texniki cəhətdən daha yaxşı xidmət göstərməsinə səbəb olacağını deyib.

Sonra BMT-nin sabiq Baş katibi **Pan Gi Munun** videomüraciəti təqdim edilib. IX Qlobal Bakı Forumunun çevik dialoqların aparılması üçün səmərəli platforma olduğunu vurğulayan BMT-nin sabiq Baş katibi beyin mərkəzlərinin bir araya gəlməsi ilə sağlam gələcəyi təşviq edən düşüncələrin paylaşılmasının faydalı olacağını diqqətə çatdırıb.

«Dünya qarşısında duran təhdidləri aradan qaldırmaqla dayanıqlı inkişafa nail olmaq mümkündür. Bunun üçün yeni qaydalar işlənib hazırlanacaq və onlar icra ediləcək. ÜST tərəfindən yeni qaydaların hazırlanması və ölkələrdə icrası gündəmdə olan məsələdir. Həmin qaydaların şəffaf şəkildə həyata keçirilməsi vacibdir. Pandemiya göstərdi ki, ictimai səhiyyəyə diqqət artırılmalıdır. COVID-19 kimi yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması çoxtərəfli əməkdaşlıqla mümkündür. Pandemiyaya cavab olaraq vaksinlər istehsal olundu. Onların ədalətli paylanması və əlçatan olması vacibdir. Gəlir səviyyəsindən asılı olmayaraq, heç bir ölkə bu prosesdən kənarda qalmamalıdır. Ümid edirəm ki, 2022-ci ildə çoxtərəfli əməkdaşlıq tətbiq etməklə sosial-iqtisadi sabitliyə nail olunacaq, rifah əldə ediləcək, xroniki risklər azalacaq. Dayanıqlı İnkişaf Məqsədlərinə də məhz belə əməkdaşlıqla nail olmaq mümkündür», — deyə Pan Gi Mun bildirib.

İclasa onlayn formatda qoşulan Kolumbiya Universitetinin professoru, BMT Baş katibinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə xüsusi müşaviri **Cefri Saks** pandemiyanın alovlandığı zamanlarda bəzi ölkələrin düzgün siyasətlə epidemioloji vəziyyəti nəzarət altına aldıqlarını və yoluxma sayını azaltdıqlarını bildirib. Onun sözlərinə görə, bu prosesdə vətəndaş cəmiyyətlərinin də məsuliyyətli davranışı rol oynayıb. C.Saks pandemiya ilə əlaqəli tədqiqatların yetərli olmadığını, bəzi ölkələrin şəffaf məlumatlar və hesabatlar təqdim etmədiyini də diqqətə çatdırıb. O, Ümumdünya Səhiyyə Fondunun yaradılmasının vacibliyini vurğulayıb.

Panel iclasında çıxış edən BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri, Ekvadorun sabiq xarici işlər naziri **Mariya Fernanda Espinoza** çevik ümumbəşəri səhiyyə sisteminin qurulmasını vacib hesab edib.

«COVID-19 pandemiyası bizə sosial həmrəyliyin də mühüm amil olduğunu göstərdi. Belə ki, dövlət və özəl sektorlar arasında əlaqələr inkişaf etməlidir. Həmçinin koronavirus əleyhinə vaksinlər əlçatan olmalıdır. Təəssüf ki, səhiyyə xidmətləri, peyvəndlərin hamı üçün olması qaydası işləmədi. Vaksinlər ədalətli şəkildə paylanmadı. Onu qeyd etmək lazımdır ki, regional inteqrasiya COVID-19-dan əvvəl də zəif idi. Pandemiya hər kəs, xüsusilə səhiyyə sistemləri üçün dərs oldu, çoxtərəfli əməkdaşlığın vacib alət olduğunu öyrətdi. Hazırda COVID-19-dan çıxış planları hazırlanır. Bu zaman keçmiş səhvlər təkrarlanmamalıdır. Ölkələr iqtisadiyyatlarına vəsait yatırırlar. Bu məsələdə kasıb ölkələrə də yardım edilməlidir. Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün trilyon dollarla vəsait tələb olunur. Ümid edirəm ki, qlobal dünya nizamına nail olacağıq», — deyə M.F.Espinoza qeyd edib.




Latviyanın sabiq Prezidenti **Valdis Zatlers** pandemiyanın Ümumdünya Səhiyyə Təşkilatının nə qədər vacib bir təsisat olduğunu göstərdiyini və təşkilatın ictimai səhiyyəni tənzimləyən ümumdünya qurumu rolunu oynadığını diqqətə çatdırıb. Pandemiya dövründəki antivaksin hərəkatının da unudulmamalı olduğunu bildirən V.Zatlers deyib: «İnsanlara anlaya bildikləri dildə başa salınmalıdır ki, onlar yanlış məlumatlara doğru yönəlməsinlər. Pandemiya xaosa səbəb oldu. Peyvəndin sınaqdan keçirilmədiyi, insanlar üzərində eksperiment aparıldığı barədə dezinformasiyalar yayıldı. Halbuki, pandemiya başlayandan qısa müddət sonra xəstəxanalar doldu, maska taxılması ilə bağlı məcburiyyətlər tətbiq edildi, qapanmalara gedildi. Hər kəs anlamalıdır ki, vaksinsiz pandemiyanın öhdəsindən gəlmək mümkün olmazdı. Əfsuslar olsun ki, «vaksin milliyyətçiliyi»nin də şahidi olduq. İnsanlara anladıqları dildə mesajlar verilməlidir. Çünki başqa bir pandemiya da yarana bilər. Bütün bunlara hazır olmaq üçün düzgün maariflənmənin olması vacibdir».

Panel iclasında çıxış edən və ölkəmizdə pandemiya ilə mübarizədən danışan Azərbaycan Respublikasının səhiyyə naziri **Teymur Musayev** Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bütün tədbirlərin ÜST ilə sıx əməkdaşlıq və əlaqələndirilmiş şəkildə görüldüyünü bildirib. Nazir deyib: «Dövlətimizin başçısı tərəfindən Nazirlər Kabinetinə tapşırıqlar verildi və Operativ Qərargah yaradıldı. Bu Qərargah tərəfindən qərarlar qəbul edildi, vaksinlər paylandı və peyvəndləmə prosesi həyata keçirildi».

T.Musayev əlavə edib ki, COVID-19 pandemiyası hər bir ölkəyə müəyyən dərslər verdi. Öyrəndiyimiz dərsləri, pandemiyanı nə dərəcədə idarə edə bildiyimizi və sona gəlib çatıb-çatmadığımızı müzakirə etməyin vaxtıdır. Təəssüf ki, bu dövrdə təkcə pandemiya ilə deyil, antivaksin hərəkatına qarşı mübarizə də ön plana çıxdı. Bir sıra kütləvi informasiya vasitələrində vaksinlərlə bağlı əhalini qorxuya salan saxta məlumatlar yayıldı. Belə saxta məlumatlarla mübarizə qarşımızda duran əsas öhdəlikdir. Medianın elmi təsdiqi olmayan məlumatları yaymaq hüququ yoxdur. Media ilə tənzimlənmə aparılmalıdır. Çünki nəticədə antivaksin hərəkatı ilə üzləşmək mümkündür. Azərbaycan hökuməti isə media ilə paralel işləyərək, koronavirus, vaksinlər barədə vaxtaşırı dolğun, düzgün məlumatları ictimaiyyətə çatdırdı. Vətəndaşların dövlətə güvənməsi səhiyyə sistemlərinin düzgün təşkilində vacib amildir. Ümumiyyətlə, pandemiyaya qarşı tədbirlərin düzgün anlaşılmasında əhalinin savadlılığı vacibdir.

Nazir deyib ki, pandemiya səhiyyə sisteminə düzgün investisiyaların yatırılmasının vaxtı gəlib çatdığını göstərdi: «Pandemiya böhrandır. Böhranlar olmadan tərəqqiyə nail olmaq mümkün deyil. Bu, bizi müəyyən addımlar atmağa sövq etdi və çoxtərəfli əməkdaşlığın vacibliyini öyrətdi».

Bosniya və Herseqovinanın sabiq Prezidenti **Mladen İvaniç** milyonlarla doza vaksinin zəngin ölkələr tərəfindən alınıb saxlanıldığını və yararsız hala salındığını vurğulayıb. Onun sözlərinə görə, hətta ölkələr arasında əməkdaşlıq əvəzinə, rəqabət də yaranıb. «Virus infeksiyaları asanlıqla yayılır və sərhəd tanımır. Sərhədlər bağlansa da, yayılmanın qarşısını almaq mümkün olmur. Odur ki, çoxtərəfli əməkdaşlıq məsələləri ön planda olmalıdır. Kasıb ölkələrdə çox inkişaf etməyən səhiyyə sisteminin mövcudluğu yeni pandemiyaların yaranmasını qaçılmaz edir. Onlara kömək etmək lazımdır. Hər kəs gələcək təhdidlərə hazır olmalıdır», — deyə sabiq prezident bildirib.

Panel iclası müzakirələrlə davam edib.

# 1 nömrəli Bakı Tibb Kollecinin 120 illiyi qeyd olunub

**Bakı Konqres Mərkəzində Səhiyyə Nazirliyinin 1 nömrəli Bakı Tibb Kollecinin 120 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**

İlk olaraq Azərbaycan Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan **səhiyyə naziri Teymur Musayev** ötən əsrin əvvəllərində — Azərbaycanda tibbi kadrların çatışmadığı bir vaxtda kollecin yaradılmasının tarixindən danışıb: «1 nömrəli Bakı Tibb Kolleci çətin və mürəkkəb, eyni zamanda, uzun və şərəfli bir inkişaf yolu keçib. 120 yaşlı təhsil ocağının on minlərlə məzunu həmin müddətdə Azərbaycanın bütün bölgələrində müxtəlif tibb müəssisələrində çalışıb, əhalinin sağlamlığının keşiyində dayanıb, səhiyyəmizin inkişafına dəyərli töhfələr verib».




Nazir tibb kollecinin fəaliyyətində bir sıra tanınmış həkim-müəllimlərin, xüsusilə görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın mühüm rol oynadığını qeyd edib: «Oftalmologiya sahəsində unikal elmi məktəbin yaradıcısı, böyük alim, bütün həyatı boyu Hippokrat andına sədaqətini nümayiş etdirən akademik Zərifə Əliyeva təkcə çoxşaxəli elmi tədqiqat işləri aparmaqla kifayətlənməyib. O, 1962-1969-cu illərdə tibb kollecində peşəkar səhiyyə işçilərinin hazırlanmasına da böyük əmək sərf edib».



Dünya ölkələri üçün qlobal problemə çevrilən COVID-19 infeksiyası mövzusuna toxunan Teymur Musayev xüsusən pandemiya dövründə tibb bacılarının fəaliyyətinin nə qədər önəmli olduğunu vurğulayıb. Nazir bildirib ki, beynəlxalq səviyyədə pandemiyaya qarşı mübarizədə dövlətimizin səyləri və dəstəyi nəticəsində xəstələrin müalicəsinin təşkili operativ qaydada həyata keçirilib. «Təbii ki, xəstəliyin nəzarətdə saxlanılmasında dövlətin dəstəyi ilə yanaşı, tibb işçilərimizin, xüsusən də tibb bacılarının rolu danılmazdır. Pandemiya ilə eyni dövrə təsadüf edən 44 günlük Vətən müharibəsində və müharibədən sonrakı reabilitasiya proseslərində tibb işçilərinin əzmkar əməyi ilə yüzlərlə qəhrəman döyüşçümüz həyata qaytarılıb», — deyə nazir vurğulayıb.

Teymur Musayev onu da qeyd edib ki, ixtisasca həkim olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tibb təhsilinin inkişafına, səhiyyə və tibb işçilərinə göstərdiyi diqqət və qayğısı əvəzsizdir: «Mehriban xanımın tibb müəssisələrinə mütəmadi səfərləri zamanı müxtəlif xəstəliklərdən əziyyət çəkən insanların problemləri ilə maraqlanması əhalinin sağlamlığına ən yüksək səviyyədə göstərilən diqqət və qayğının bariz nümunəsidir».

«İnanıram ki, tanınmış həkim və alimlərimizin iz saldığı zəngin tarixə malik olan 1 nömrəli Bakı Tibb Kolleci bundan sonra da fəaliyyətini uğurla davam etdirəcək, cəmiyyətimizə insanların sağlamlığının keşiyində vicdanla dayanan neçə-neçə tibb işçiləri bəxş edəcək», — deyə nazir fikrini tamamlayıb.

Azərbaycanda təhsil sisteminin tarixindən bəhs edən **təhsil naziri Emin Əmrullayev** 120 il ərzində kifayət qədər sürətli və uğurlu yol qət edildiyini bildirib. O zamanlar azərbaycanlı həkimlərin sayının az olduğunu qeyd edən təhsil naziri hazırda Azərbaycan Tibb Universitetinin, tibb kolleclərinin peşəkar tibb işçiləri yetişdirdiyini, xarici ölkələrin ali təhsil müəssisələrində ölkəmizi uğurla təmsil edən həkimlərimizin, alimlərimizin olduğunu diqqətə çatdırıb. E.Əmrullayevin sözlərinə görə, 120 il ərzində belə nailiyyətlər əldə etmək bir xalq, millət üçün çox böyük nəticədir.

Tibb kolleclərinin fəaliyyətindən bəhs edən nazir həmin təhsil müəssisələrində tibb bacılarının yetişdirildiyini, bunun isə qızların təhsilə cəlb olunmasında xüsusi rol oynadığını vurğulayıb.

**1 nömrəli Bakı Tibb Kollecinin direktoru Nailə Əliyeva** tibb ocağının tarixi və müasir dövrdə fəaliyyəti haqqında ətraflı məlumat verib: «İlk məzunları 5 nəfərdən ibarət olan təhsil müəssisəsinin hazırda 1400-dən çox tələbəsi var. Ölkəmizin ən qədim təhsil ocaqlarından biri olan, 1902-ci ildə yaradılmış, böyük inkişaf yolu keçmiş, müxtəlif adlar altında fəaliyyət göstərmiş 1 nömrəli Bakı Tibb Kolleci hazırda tibb bacısı və qardaşı işi, müalicə işi, mamalıq, əczaçılıq və gözdən əlillər üçün müalicə masajı ixtisasları üzrə orta tibb kadrları yetişdirir. Əlamətdar haldır ki, bugünkü yubiley ərazi bütövlüyümüzün bərpa edildiyi bir şəraitdə keçirilir. Əminik ki, Qarabağımızda yenidənqurma və bərpa işləri uğurla başa çatdırılacaq, biz də öz növbəmizdə yurdumuzun gözəl məkanlarında xalqımıza, millətimizə layiqincə tibb xidməti göstərə biləcək orta ixtisaslı tibb işçiləri yetişdirəcəyik».

120 illik tarixin bir parçası olmaqdan məmnunluğunu ifadə edən **1 nömrəli Bakı Tibb Kollecinin məzunu və gözdən əlillər üçün müalicəvi masaj üzrə təcrübə müəllimi Səbuhi Məmmədov** qeyd edib ki, gözdən əlillər üçün açılmış şöbə 2014-cü ildən fəaliyyət göstərir. Onun sözlərinə görə, kollecdə həmin tələbələrin ixtisasa yiyələnmələri üçün, fiziki durumları nəzərə alınmaqla, hər cür şərait yaradılıb, onlara xüsusi qayğı və həssaslıqla yanaşılır.

Daha sonra kollecin tarixi və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib. Həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın həyat və fəaliyyəti haqqında hazırlanmış videoçarx təqdim olunub.

Sonda 1 nömrəli Bakı Tibb Kollecinin bir sıra əməkdaşları Səhiyyə Nazirliyinin fəxri fərmanları ilə təltif olunublar.

Tədbir bədii hissə ilə davam edib.

# Azərbaycan Tibb Universitetində İsrail Tibb Günü keçirilib

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında İsrail Tibb Günü keçirilib.**

Universitetin mətbuat xidmətindən bildirildiyinə görə, İsraildən olan tibb mütəxəssislərinin, azərbaycanlı həkimlərin, tələbə və rezidentlərin iştirak etdiyi tədbirdə ATU-nun elmi işlər üzrə prorektoru, dosent **Rauf Bəylərov** ali məktəbin fəaliyyəti, əldə olunan nailiyyətlər, tədris sistemi haqqında ətraflı məlumat verib. O, əməkdaşlığın genişlənməsinə xidmət edən tədbirlərin əhəmiyyətini vurğulayıb, belə təşəbbüslərin qarşılıqlı təcrübə mübadiləsi baxımından da önəm kəsb etdiyini qeyd edib.

Prorektor 44 günlük Vətən müharibəsi dövründə dəstəyinə görə İsrail hökumətinə minnətdarlığını da bildirib.

İsrailin Azərbaycandakı səfiri **Corc Dik** çıxışında ölkəsi ilə Azərbaycan arasında münasibətlərin yüksələn xətlə inkişafından söz açıb, bu tədbiri də ölkələrarası əlaqələrin inkişafına töhfə kimi qiymətləndirib. Səfir tolerant ölkə olan Azərbaycanda yəhudilərin heç bir problem yaşamadığını da dilə gətirib.

ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, professor **Surxay Hadıyev** belə elmi tədbirlərin gənc həkimlərin bilik və bacarıqlarının artırılması baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib.



Çıxış edənlər İsrail Tibb Gününün təşkilinə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya təşəkkürlərini ifadə ediblər.

Sonra İsraildən gələn mütəxəssislər ATU-nun rezidentləri üçün müxtəlif mövzularda mühazirələrlə çıxış ediblər. Mikki Gideon «Neyrocərrahiyyədə robototexnika», professor Dani Landau «Uşaq nevrologiyasının müalicəsində yeni metodlar», Patrik Ştafler «Uşaq pulmonologiyasında innovasiyalar», İzabella Karakas «Qadınlarda hamiləlik və ətraf mühit arasındakı əlaqə» kimi mövzularda məruzələr səsləndiriblər.

Seminardan sonra israilli mütəxəssislərin Azərbaycan Tibb Universitetinin kafedralarında yerli tibb mütəxəssisləri və rezidentlərlə görüşləri keçirilib.

**Azərbaycan Respublikası Prezidentinin səhiyyə və tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı 13 may 2022-ci il tarixli Fərmanının 1-ci bəndinin icrası məqsədilə Səhiyyə Nazirliyində «Səhiyyənin Transformasiyası Mərkəzi» işçi qrupunun ilk iclası keçirilib.**

## «Səhiyyənin Transformasiyası Mərkəzi» işçi qrupunun ilk iclası keçirilib

Nazirliyin mətbuat xidmətindən bildirilir ki, səhiyyə sisteminin əsas iştirakçılarının qatıldığı iclası giriş sözü ilə səhiyyə naziri Teymur Musayev açıb, səhiyyə sektorunun davamlı inkişafının təmin edilməsinin dövlət başçısının daim diqqət mərkəzində olduğunu bildirib.

Bu baxımdan, imzalanmış Fərmanda səhiyyə və tibbi sığorta sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, şəffaflığın və hesabatlılığın artırılması, rəqəmsal səhiyyənin inkişaf etdirilməsi prioritet istiqamətlər olaraq müəyyən olunub.

Fərmandan irəli gələn tapşırıqların icrası məqsədilə hazırlanmış nəticəyönümlü Fəaliyyət Planı iclas iştirakçılarının diqqətinə təqdim edilib.

Növbəti iclasda Fərmanda nəzərdə tutulan aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə geniş tərkibdə əsas komponentlərin müzakirə olunmasına qərar verilib.

## Səhiyyə Nazirliyində Türkiyənin Xarici İqtisadi Əlaqələr Şurasının nümayəndə heyəti ilə görüş olub



**Səhiyyə Nazirliyində Türkiyənin Xarici İqtisadi Əlaqələr Şurasının nümayəndə heyəti ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirildiyinə görə, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev Türkiyə və Azərbaycanın tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduğunu, ölkələrimiz arasında mövcud olan dostluq münasibətlərinin dövlət başçılarının sayəsində bu gün ən yüksək səviyyəyə çatdığını vurğulayıb.

Görüşdə iki ölkə arasında tibb sahəsində qarşılıqlı əlaqələrin mövcudluğundan məmnunluğunu bildirən Teymur Musayev Səhiyyə Nazirliyinin nümayəndə heyətinin bu ilin may ayında qardaş Türkiyəyə işgüzar səfərini xatırladıb: «İkigünlük səfər çərçivəsində Türkiyənin səhiyyə naziri Fahrettin Koca ilə görüşdə olduqca səmərəli müzakirələr apardıq. Qardaş ölkənin aparıcı tibb ocaqlarının fəaliyyəti ilə də tanış olduq. Səhiyyənin bütün sahələrində Türkiyənin təcrübəsini öyrənmək bizim üçün olduqca faydalıdır».

Rəqəmsallaşdırmanın iqtisadiyyatda labüd bir proses olduğunu diqqətə çatdıran Teymur Musayev deyib ki, səhiyyə də iqtisadiyyatın bir sektoru olaraq gələcəyini yalnız rəqəmsallaşdırma ilə görür: «Bu sahədə qardaş Türkiyənin təcrübəsi əvəzsizdir. Rəqəmsallaşdırmada Türkiyə modeli dünyada liderdir», — deyə nazir vurğulayıb.

Öz növbəsində Türkiyə Xarici İqtisadi Əlaqələr Şurasının nümayəndələri tibbi turizm, səhiyyənin rəqəmsal transformasiyası sahəsində tədqiqatlar üzrə Azərbaycanın Səhiyyə Nazirliyi ilə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayıblar.

Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə Azərbaycan ilə Türkiyə arasında səhiyyə sahəsində əməkdaşlıq və birgə layihələr ətrafında səmərəli fikir mübadiləsi aparılıb. Görüşün sonunda tərəflər əməkdaşlığı inkişaf etdirmək barədə razılığa gəliblər.

## Azərbaycan Tibb Universitetində «Məzun günü» keçirildi

**Azərbaycan Tibb Universitetində (ATU) 2021-2022-ci tədris ilinin sonu ilə əlaqədar tələbələrin «Məzun günü» keçirilib.**

Tanınmış ictimai-siyasi xadimlərin, səhiyyə işçiləri və digər qonaqların iştirak etdiyi təntənəli mərasimdə əvvəlcə Dövlət Himni səsləndirilib.

Təbrik nitqi ilə çıxış edən **səhiyyə naziri Teymur Musayev** «Məzun günü»nün gələcəyin həkimlərinin yaddaşında gözəl bir gün kimi qalacağını bildirib: «Bu gün bizim üçün də əlamətdar gündür. Səhiyyəmiz Azərbaycanın sağlam gələcəyi naminə şərəfli missiyaya qoşulacaq yeni bacarıqlı gənclərlə, yaradıcı qüvvələrlə zənginləşir».

Nazir Azərbaycan dövlətinin səhiyyə sahəsinə daim xüsusi diqqət yetirdiyini xatırladaraq deyib: «Müasir Azərbaycan cəmiyyətinin digər sahələrində olduğu kimi, səhiyyənin də inkişafı Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev əhalinin sağlamlığının qorunmasını ölkə siyasətində prioritet məsələlərdən biri hesab edirdi. Bu gün Ulu öndərin davamçısı Prezident İlham Əliyev də bu sahəni hər zaman diqqətdə saxlayır. İxtisasca həkim olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tibb təhsilinin inkişafına göstərdiyi diqqət və qayğısı da əvəzsizdir».



Tibb Universitetində son zamanlar təhsilin səviyyəsi ilə bağlı ciddi işlər görüldüyünü qeyd edən səhiyyə naziri deyib: «Son illərdə ATU-nun xarici ölkələrin qabaqcıl təhsil müəssisələri ilə beynəlxalq əlaqələri genişlənməkdədir. Bu, Tibb Universitetində yüksək səviyyəli tədris sisteminin tətbiqini, tələbə və müəllim mübadiləsini mümkün edib, eyni zamanda, müəllim və tələbələrin beynəlxalq elmi-təcrübi müzakirələrdə iştirakını genişləndirib. Bütün görülmüş işlərin nəticəsində Azərbaycan səhiyyəsi tarixində ilk dəfə olaraq ATU-nun tədris proqramları beynəlxalq akkreditasiyadan keçib. Əminəm ki, siz hər bir vətəndaşımız üçün sağlam və uzunömürlü həyatın təmin edilməsində bələdçilik edən işıq olacaqsınız», — deyə səhiyyə naziri məzunları təbrik edib.

**Universitetin rektoru, professor Gəray Gəraybəyli** gələcəyin həkimlərinə karyeralarında uğurlar diləyib, ATU-nun məzunu adını hər yerdə uca tutmağı arzulayıb. «Ulu öndər Heydər Əliyev Azərbaycanda həkim və müəllimlərin rolunu yüksək qiymətləndirirdi. Ümummilli liderin layiqli davamçısı olan Prezident İlham Əliyev fərqlənən tələbələrə daim diqqət və qayğı göstərir. Yüksək ballarla Universitetimizə qəbul olunan tələbələrin Prezident təqaüdü ilə mükafatlandırılması bunun bariz nümunəsidir», — deyə G.Gəraybəyli bildirib.

Rektor tədbir iştirakçılarına ATU-nun fəaliyyəti, son illər tədris prosesində aparılan islahatlar, tətbiq edilən yeniliklər barədə də məlumat verib. Qeyd olunub ki, bu il ATU-nu 1231 nəfər bitirir. Onlardan 335 nəfəri I Müalicə-profilaktika, 332-si II Müalicə-profilaktika, 280-i Stomatologiya, 125-i Əczaçılıq, 70-i İctimai səhiyyə, 76 nəfəri isə Hərbi tibb fakültələrini bitirib. Builki məzunlar arasında 13 nəfər hərbi-feldşer də var. Məzunların 319 nəfəri xarici ölkə vətəndaşıdır. Eyni zamanda, 88 məzun ATU-nu fərqlənmə diplomu ilə bitirib. Bu diploma layiq görülən məzunların hamısı Azərbaycan vətəndaşıdır.

Sonra məzunlar Hippokrat andı içiblər. Onlar xalqımızın sağlamlığının keşiyində ləyaqətlə duracaqlarına söz veriblər.

Tədbirdə təhsilini əla qiymətlərlə başa vuran məzunlara və Azərbaycan Tibb Universitetinin ictimai həyatında fəal iştirak edən gənclərə fəxri fərmanlar təqdim olunub. Diplomları səhiyyə naziri Teymur Musayev və ATU-nun rektoru Gəray Gəraybəyli təqdim ediblər.

Daha sonra ATU-nun professor-müəllim heyəti və valideynlər məzunları təbrik edərək, onların gələcək peşə fəaliyyətlərində həkim adının müqəddəsliyini doğruldacaqlarına inandıqlarını söyləyiblər.

Tədbir tanınmış sənət adamlarının çıxışı ilə davam edib. ATU-nun tələbələri də sənətçilərlə eyni səhnəni bölüşüblər. Universitetin Hərbi tibb fakültəsinin tələbələri vətənpərvərlik ruhunda mahnılar ifa ediblər.

# «Rəqəmsal səhiyyənin tətbiqinin genişləndirilməsi» işçi altqrupunun ilk iclası keçirilib

**Azərbaycan Respublikası Prezidentinin səhiyyə və tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı 13 may 2022-ci il tarixli Fərmanının 1-ci bəndinin icrası məqsədilə Səhiyyə Nazirliyində «Səhiyyənin Transformasiyası Mərkəzi» işçi qrupu nəzdində yaradılmış «Rəqəmsal səhiyyənin tətbiqinin genişləndirilməsi» işçi altqrupunun ilk iclası keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirilir ki, tədbirdə Səhiyyə, Rəqəmsal İnkişaf və Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, həmçinin İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sahə üzrə məsul şəxsləri iştirak ediblər.

İclası giriş sözü ilə açan «Səhiyyənin Transformasiyası Mərkəzi» işçi qrupu və «Rəqəmsal səhiyyənin tətbiqinin genişləndirilməsi» işçi altqrupunun rəhbəri, səhiyyə naziri Teymur Musayev diqqətə çatdırıb ki, adı çəkilən Fərmanda səhiyyə və tibbi sığorta sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, şəffaflığın və hesabatlılığın artırılması, rəqəmsal səhiyyənin inkişaf etdirilməsi prioritet istiqamətlər kimi müəyyənləşdirilib. Teymur Musayev elektron səhiyyənin inkişaf etdirilməsinə dair təkliflərin üç ay müddətində hazırlanıb Prezident İlham Əliyevə təqdim edilməli olduğunu vurğulayıb. Qeyd edib ki, bu məqsədlə dövlət orqanlarının nümayəndələrini, habelə mütəxəssisləri və ekspertləri cəlb etməklə «Səhiyyənin Transformasiyası Mərkəzi» işçi qrupu və onun səhiyyə sahəsində əsas fəaliyyət istiqamətləri üzrə işçi altqrupları yaradılıb.

Səhiyyə sisteminin təkmilləşdirilməsinin ölkəmiz üçün prioritet məsələ olduğunu da qeyd edən işçi qrupunun rəhbəri deyib: «Son zamanlar dövlət qurumlarında informasiya-kommunikasiya texnologiyaları sürətlə tətbiq olunur. Qabaqcıl ölkələrin təcrübələri göstərir ki, səhiyyənin gələcəyi yalnız rəqəmsallaşdırma üzərindən həyata keçiriləcək. Bunu nəzərə alaraq, rəqəmsallaşdırma sahəsində lider olan ölkələrin modellərinin tətbiqi bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Məqsədimiz gələcəkdə Azərbaycan səhiyyəsinin qlobal geoinformasiya sisteminə inteqrasiyasına nail olmaqdır».

Teymur Musayev həmçinin qeyd edib ki, hazırda elektron səhiyyə terminlərinin Azərbaycan dilində lüğətinin tərtib edilməsi istiqamətində müvafiq işlər görülür.

Daha sonra işçi altqrupun üzvlərinin mövzu ilə bağlı fikirləri dinlənilib.

Müzakirələrdən sonra içşi qrupun rəhbəri Teymur Musayev növbəti iclasda tərəflərin səhiyyənin rəqəmsallaşdırmasına dair öz təkliflərini təqdim etmələrini tapşırıb.




# Səhiyyə naziri Teymur Musayev: «Azərbaycanda meymunçiçəyi virusuna yoluxma halı qeydə alınmayıb»

**Dünyada meymunçiçəyi virusuna yoluxan xəstələrin sayı artsa da, Azərbaycanda həmin virusa yoluxma halı qeydə alınmayıb.**

Bunu səhiyyə naziri Teymur Musayev kütləvi informasiya vasitələrinə bu barədə verdiyi müsahibədə deyib.

«Meymunçiçəyi virusu ilə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatının istər ölkə, istərsə də Avropa Bürosu ofisləri ilə mütəmadi olaraq təmasdayıq. Azərbaycanda meymunçiçəyi virusunun yayılmasına şərait yaradan amillər yoxdur. Ümid edirik ki, əhalinin gigiyenik qaydalara riayət etməsi həmin virusun ölkəmizdə yayılmasına imkan verməyəcək», — deyə nazir bildirib.

# ÜST və USAID Azərbaycanda yeni layihəyə başlayır

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyi və ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) ölkəmizdə təcili tibbi yardım xidmətlərinin sürətləndirilməsinə, infeksiyaların qarşısının alınması və nəzarət sistemlərinin təkmilləşdirilməsinə yönəlmiş yeni layihəyə start verib.**

Layihənin başlanması münasibətilə keçirilən tədbirdə çıxış edən **ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancının** sözlərinə görə, USAID tərəfindən maliyyələşdirilən, 3,35 milyon dollar dəyərində olan layihə ÜST vasitəsilə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və Azərbaycan Tibb Universitetinə dəstək göstərəcək: «Azərbaycanda Təcili Tibbi Yardım və İnfeksiyaların Qarşısının alınması və Nəzarət Sistemlərinin Gücləndirilməsi» layihəsi çərçivəsində hər iki sistem üçün idarəetmə strukturları, milli strategiyalar, standartlar və prosedurlar dəstəklənəcək, Azərbaycan Tibb Universitetində, tibb kolleclərində və digər təhsil müəssisələrində müvafiq təhsil proqramları yaradılacaq. Həmçinin yerli təlim və sertifikatlaşdırma proqramları vasitəsilə hər iki sahədə mövcud və potensial işçi qüvvəsinin bilikləri təkmilləşdiriləcək, Sumqayıtda təlim və simulyasiya mərkəzinin əsası qoyulacaq, infeksiyaların qarşısının alınması və nəzarət üzrə milli komitə, xəstəxanadaxili infeksiyalar və mikrob əleyhinə davamlılıq üzrə ən yaxşı təcrübələri özündə birləşdirəcək milli istinad laboratoriyası yaradılacaq. COVID-19-un bizə öyrətdiyi əsas dərs odur ki, tibb işçilərini, xəstələri və daha geniş ictimaiyyəti yoluxucu xəstəliklərdən qorumaq istəyiriksə, infeksiyanın qarşısının alınması və nəzarətə bütün səviyyələrdə səhiyyə sistemlərinin tərkib hissəsi kimi yanaşmalıyıq. Mövcud pandemiya kimi fövqəladə hallarda cəmiyyətin artan ehtiyaclarına cavab verə bilmək üçün daha təkmil təcili tibbi yardıma və yaxşı təlim keçmiş işçilərə ehtiyacımız var. İnanırıq ki, bu layihə Azərbaycanda səhiyyə sisteminin gücləndirilməsi ilə bağlı səylərimizdə bizə daha böyük təkan verəcək».

**Səhiyyə nazirinin müavini Nadir Zeynalov** yeni layihənin iki əsas məsələni özündə cəmləşdirdiyini qeyd edib: «Bunlardan biri ölkəmizdə təcili tibbi yardımın təkmilləşdirilməsidir. Bu, çoxkomponentli və yeni yanaşma ilə planlaşdırılmış layihədir. Ötən ilin sonunda Elmi Şuranın qərarı ilə Azərbaycan Tibb Universitetində Təcili tibb kafedrası yaradılıb. Həmin kafedra öz addımlarını bu layihə ilə birlikdə atacaq. Təcili tibb ixtisasının milli tibbi nomenklaturaya daxil edilməsi və həmin ixtisas üzrə rezidentura hazırlığının başlanması planlaşdırılır.




Təcili tibbi yardımın təkmilləşdirilməsi, yenilənməsi, dünyada ümumi qəbul edilmiş standartlar üzrə fəaliyyət göstərməsi nəzərdə tutulub.

İkinci komponent infeksiyaların profilaktikası və nəzarət sistemlərinin gücləndirilməsidir. Layihə vasitəsilə xəstəxanadaxili infeksiyaların profilaktikası sisteminin nəzərdən keçirilməsi, yeniliklərin əlavə edilməsi, görülmüş işlərin təkmilləşdirilməsi nəzərdə tutulur ki, bu da xəstəxanadaxili infeksiyaların, həm xəstələrin, həm də tibb işçilərinin infeksiyaya yoluxma riskinin azaldılması deməkdir. Hər iki komponentin pandemiya ilə mübarizəyə həsr olunduğunu nəzərə alaraq deyə bilərik ki, layihənin faydası ikiqat olacaq».

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nümayəndəsi Araz Nəsirov** son bir neçə ildə ölkə səhiyyəsində intensiv islahatlar aparıldığını və burada beynəlxalq təşkilatların töhfə vermәsini təqdirəlayiq hal kimi qiymətləndirib, xəstəxanalarda təcili yardım şöbələri qurularkən müasir standartlara istinad etməyin vacibliyini vurğulayıb: «Sevinirəm ki, bu gün bu istiqamətdə yeni bir layihəyə başladıq. Səhiyyənin bütün iştirakçıları beynəlxalq qurumlarla bu prosesdə iştirak edirlər. Layihənin həmin xidmətin daha yüksək səviyyədə təşkilinə töhfə verəcəyinə inanırıq».

**TƏBİB-in İdarə Heyəti sədrinin müşaviri Firəngiz Əliyeva** layihənin hər iki komponentinin iki il müddətində öz önəmini göstərdiyini qeyd edib: «Təcili tibbi yardım xidməti və infeksiyalara nəzarət sistemlərinin gücləndirilməsinin əhəmiyyətini həm COVID, həm də müharibə dövründə şahidi olduq».

Ölkələrin sosial göstəricisinin əsasında səhiyyə sisteminin güclü olmasının dayandığını deyən F.Əliyeva son iki ildə Azərbaycanda bu sahədə görülən işlər barəsində ətraflı məlumat verib.

**USAID-in missiya direktoru Jaydev Sinqx** «Azərbaycanda pandemiyaya qarşı mübarizə» layihəsinin ABŞ və Azərbaycan arasında 30 illik davamlı tərəfdaşlığın bariz nümunəsi olduğunu deyib. «USAID Azərbaycan COVID-19 pandemiyasının sağlamlığa və iqtisadi təsirlərinə qarşı təcili və daha uzunmüddətli səyləri dəstəkləmək üçün 9 milyon dollardan çox vəsait ayırıb və ölkədəki hər bir vətəndaş əhatə olunana qədər Azərbaycan səhiyyə sistemini gücləndirmək və genişləndirməkdə davam edəcək. Ölkənin səhiyyə sistemini region üçün bir model halına gətirmək məqsədilə biz bu sahədə Azərbaycan hökuməti ilə daha dərin əməkdaşlığa ümid edirik».

Tədbir zamanı həmçinin Hande Harmancı səhiyyə sisteminin mövcud və gələcək pandemiyalara davamlılığının gücləndirilməsinə dair təqdimatla çıxış edib.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı bu günə qədər əhalinin sağlamlığı ilə bağlı fövqəladə halların qarşısının alınması, hazırlığın görülməsi, aşkar edilməsi və gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası ilə sıx əməkdaşlıq edərək bir sıra layihələr həyata keçirib. Yeni layihə də ÜST və USAID-in Azərbaycan səhiyyəsinə davamlı dəstəyinin tərkib hissəsidir.

# «Sağlamlıq üçün həmrəylik təşəbbüsü» layihəsinin yekun nəticələri təqdim edilib

Avropa İttifaqının (Aİ) və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) birgə layihəsi olan «Sağlamlıq üçün həmrəylik təşəbbüsü» başa çatıb. Bu münasibətlə layihənin yekun nəticələri təqdim edilib. 2020-ci ilin aprel ayından etibarən iki ildən artıq bir müddətdə həyata keçirilmiş COVID-19 pandemiyası ilə mübarizəyə dəstək layihəsi Aİ və ÜST-nin Azərbaycana davamlı dəstəyinin tərkib hissəsidir. Layihə gələcəkdə baş verə biləcək pandemiyalara qarşı dayanıqlı cavab potensialının formalaşdırılmasına yardım göstərilməsini hədəfləyir.




Layihənin yekun mərasimində çıxış edən **ÜST-nin Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri Hande Harmancı**nın sözlərinə görə, layihə altı Şərq Tərəfdaşlığı ölkəsində – Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova, Belarus və Ermənistanda həyata keçirilib: «Bu gün Azərbaycanda layihənin yekun nəticələrinin təqdim edilməsi mərasimidir. Digər ölkələrdə də layihələr yekunlaşmaq üzrədir. Layihə üç fazada həyata keçirilib. Birinci faza avadanlıqların satınalınması, ikinci faza tibb işçiləri üçün təlimlərin keçirilməsi, onların bilik və bacarıqlarının artırılması, üçüncü faza isə sistemlərin qalıcı olması idi. Belə ki, qurulan sistemlər vasitəsilə ölkənin səhiyyə sisteminin növbəti pandemiyalara hazır olması üçün əlimizdən gələni etməyə çalışdıq. Layihə çərçivəsində əhalinin maarifləndirilməsi də bizim üçün çox önəmli idi. Ümumilikdə, son dərəcə səmərəli və yararlı bir layihə oldu».

«ÜST olaraq Azərbaycanın səhiyyə sisteminə hər zaman dəstək olmağa hazırıq. Bu, son layihə deyil. Avropa İttifaqı ilə birlikdə layihələrimiz davam edir», – deyə H.Harmancı deyib.

**Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin siyasi məsələlər üzrə müşaviri Çertomir Fisinger** bildirib ki, layihə COVID-19 pandemiyasının alovlanmasına cavab olaraq başlayıb və ən həssas insanların tibbi ehtiyaclarını ödəməyə yönəlib: «Pandemiya hər kəsə təsir etdi və beynəlxalq əməkdaşlığın nə qədər vacib olduğunu göstərdi. Qlobal əməkdaşlıq koronavirus pandemiyasının qarşısının alınmasında rol oynadı. Aİ ÜST ilə birlikdə Şərq Tərəfdaşlığı ölkələrinə pandemiyanın nəticələrinin qarşısını almaq üçün yardım məqsədilə iki regional layihə həyata keçirdi. Biri «Sağlamlıq üçün həmrəylik təşəbbüsü», digəri «COVID-19 vaksini və peyvəndləşmə prosesinə hazırlıq» layihələridir. Bu gün «Sağlamlıq üçün həmrəylik təşəbbüsü» layihəsini yekunlaşdırırıq. Daha dözümlü səhiyyə sistemlərinin qurulmasına yönələn layihənin müsbət nəticələrinə görə şadıq».

**Səhiyyə nazirinin müavini Nadir Zeynalov** kifayət qədər tez planlaşdırma və maliyyələşmə sayəsində layihənin qısa müddətdə başladığını və pandemiya ilə mübarizədə əhəmiyyətli rol oynadığını deyib. Layihənin adının təsadüfi olmadığını söyləyən nazir müavini pandemiyaya qalib gəlmək üçün həmrəyliyin vacibliyindən söz açıb.

«Sağlamlıq üçün həmrəylik təşəbbüsü» layihəsi milli səhiyyənin COVID-lə mübarizədə apardığı işlərə dəstək verib. Layihə çərçivəsində ölkəyə avadanlıq və tibbi ləvazimatlar gətirilib. Bundan başqa, xəstələrin izlənilməsi və epidemioloji təhlilin aparılması üçün lazım olan elektron vasitələr təqdim olunub. Layihənin çox vacib və dayanıqlı nəticə verən hissəsi təlimlərin təşkil olunmasıdır. Tibb işçiləri, tibb tələbələri üçün aparılan silsilə təlimlər onların COVID-lə bağlı bilik və bacarıqlarını artırıb. Layihənin verdiyi töhfələri Səhiyyə Nazirliyi olaraq yüksək qiymətləndiririk. Onun həyata keçirilməsində əziyyəti keçən hər kəsə minnətdarıq», – deyə N.Zeynalov qeyd edib.

**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) İdarə Heyəti sədrinin müşaviri Firəngiz Əliyeva** müharibənin təsirinə məruz qalmış bir neçə rayonda layihə çərçivəsində əhaliyə tibbi xidmətlər göstərildiyini, həmin ərazilərdəki xəstəxanaların tibbi ləvazimatlarla təchiz edildiyini bildirib.

«Azərbaycanın ən böyük uğuru pandemiyaya tək səhiyyə sahəsinin deyil, ölkənin problemi kimi yanaşması və bütün qurumların koordinasiyalı şəkildə işləməsi oldu. Bununla yanaşı, beynəlxalq qurumların bizimlə olması sevindirici idi», – deyə F.Əliyeva vurğulayıb.

Daha sonra layihə haqqında videoçarxlar nümayiş etdirilib və yekunları ilə bağlı hesabat təqdim olunub.

**Layihə rəhbəri Tural Qulu** «Sağlamlıq üçün həmrəylik təşəbbüsü»nün həyata keçirildiyi dövr ərzində əldə edilmiş nailiyyətlərdən bəhs edən təqdimatla çıxış edib. Qeyd edilib ki, layihənin həyata keçirildiyi müddətdə 521 tibb avadanlığı, o cümlədən 6 ventilyator və 1 BiPAP cihazı, 81 pasiyent monitoru, 141 oksigen konsentratoru və 229 nəbz-oksimetr layihə çərçivəsində milli tərəfdaşlara təhvil verilib. Eyni zamanda, COVID-19 ilə ön cəbhədə mübarizə aparanların sağlamlığını qorumaq üçün 1 milyondan artıq fərdi mühafizə vasitəsi və 17 600 əl gigiyenası ləvazimatı ölkənin tibb müəssisələrinə təqdim edilib.

COVID-19 ilə mübarizə potensialının gücləndirilməsi məqsədilə 7 800 tibb işçisi, tibb tələbəsi, ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis və media nümayəndəsi müvafiq təlimlərə cəlb edilib. Bununla yanaşı, ÜST-nin «OpenWHO» onlayn təlim platformasının Azərbaycan səhifəsi istifadəyə verilib. Qısa müddət ərzində təlim platformasında azərbaycanlı tibb işçiləri tərəfindən qeydiyyatdan keçilən kursların sayı 10 dəfə artaraq 18 minə çatıb.

Layihə çərçivəsində COVID-19 pandemiyası ilə mübarizə və cavab tədbirlərinin gücləndirilməsi məqsədilə müxtəlif istiqamətlərdə milli səhiyyə tərəfdaşlarına texniki dəstək göstərilib. COVID-19 hallarının idarə edilməsi üzrə təlimatın yenilənməsi və infeksiyanın profilaktikası və nəzarət (İPN) üzrə İşçi Qrupunun yaradılması və fəaliyyəti dəstəklənib. Layihə tərəfindən 23 tibb müəssisəsi İPN üzrə, 5 tibb müəssisəsi COVID-19 hallarının idarə olunması, 7 tibb müəssisəsi oksigen təchizatı və istifadəsi üzrə qiymətləndirilib və müvafiq tövsiyələr verilib. «Sağlamlıq üçün həmrəylik təşəbbüsü» ilə ölkənin iki ən böyük psixi sağlamlıq müəssisəsinə doqquz ay ərzində psixoloqlar və sosial işçilər tərəfindən psixoloji yardım və psixo-sosial dəstək verilib.

Tədbirdə benefisiarların çıxışları dinlənilib, açıq müzakirələr aparılıb. Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB və digər milli tərəfdaşlara dəstək olaraq ölkədə COVID-19 pandemiyasına hazırlıq və cavab tədbirləri istiqamətində görülən işlərin əhəmiyyəti vurğulanıb. Qeyd edilib ki, Aİ-ÜST layihələri bundan sonra da Azərbaycanın səhiyyə sisteminə dəstək olaraq ölkə əhalisinin sağlam gələcəyinin təmin edilməsinə öz töhfəsini verəcək.

Sonda Aİ, ÜST və Səhiyyə Nazirliyi, eləcə də Aİ, ÜST və TƏBİB arasında təhvil-təslim aktlarının imzalanması mərasimi keçirilib.

# Səhiyyə nazirinin müavini BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin sessiyasında iştirak edir



**Birləşmiş Millətlər Təşkilatının (BMT) Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin 82-ci sessiyasında Azərbaycan Respublikası hökumətinin altıncı dövri məruzəsinin təqdimatı ilə əlaqədar nümayəndə heyəti İsveçrənin Cenevrə şəhərində səfərdə olub.**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın başçılıq etdiyi nümayəndə heyətinin tərkibində həmçinin səhiyyə nazirinin müavini İlqar Qasımov təmsil olunub.

Sonuncu beşinci dövri hesabatın təqdimatı sessiya üzvləri tərəfindən maraqla dinlənilib, tövsiyələr nəticəsində qanunvericilik islahatlarının keçirilməsi yüksək qiymətləndirilib.

Qeyd edək ki, Azərbaycan hökuməti qadın hüquqlarının təşviqi sahəsində beynəlxalq səviyyədə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə xüsusi önəm verir.

# ATU-da şəhid və qazilərin ailə üzvləri üçün oftalmoloji aksiya keçirilib

**Azərbaycan Tibb Universitetində (ATU) Vətən müharibəsinin şəhid və qazilərinin ailə üzvləri üçün növbəti humanitar aksiya keçirilib.**

ATU-nun mətbuat xidmətindən verilən xəbərə görə, universitetin rektoru, professor Gəray Gəraybəylinin təşəbbüsü və Yeni Azərbaycan Partiyası Nəsimi rayon




təşkilatının dəstəyi ilə Tədris Cərrahiyyə Klinikasında keçirilən oftalmoloji müayinə-müalicə aksiyası zamanı xəstələrin laborator müayinələrindən tutmuş əməliyyat xərclərinə kimi lazım olan bütün vəsait universitet tərəfindən qarşılanıb.

Yüksəkixtisaslı həkim briqadasının iştirakı ilə keçirilən aksiyada 34 nəfər tam müayinə olunub, xəstəlik aşkarlandığı halda yerindəcə müalicə edilib. İyirmi altı şəxsə ambulator müalicə təyin olunub və uyğun eynəklər hədiyyə edilib. Onlara xəstəliklərə səbəb olan risk amilləri ilə bağlı tövsiyələr verilib.

Aksiya zamanı ehtiyacı olanlara göz əməliyyatları da icra olunub. Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsinin müdiri Qurban İsmayılovun sözlərinə görə, Azərbaycanın müxtəlif regionlarından olan səkkiz nəfər üzərində əməliyyat həyata keçirilib: «Şəkərli diabet diaqnozu qoyulan iki nəfərə göz dibində arqon lazer fotokoaqulyasiyası icra edilib. Altı şəhidimizin anasının gözündə isə katarakta əməliyyatı aparılıb. Bütün əməliyyatlar uğurla başa çatıb, xəstələr lazımi dərman preparatları ilə təmin olunublar. Biz Vətən müharibəsi şəhidlərinin ailələrinə və iştirakçılarına qulluq etməyə həmişə hazırıq».

# «Görünməyən qəhrəmanlar: Ağxalatlılar» filmi təqdim olundu

**Mədəniyyət Nazirliyinin sifarişi, «Azərbaycanfilm» kinostudiyası və İctimai televiziyanın birgə təşkilatçılığı ilə ərsəyə gələn «Görünməyən qəhrəmanlar: Ağxalatlılar» filminin təqdimatı keçirilib.**



Tədbirdə səhiyyə nazirinin müavini Nadir Zeynalov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyəti sədri vəzifəsini icra edən Vüqar Qurbanov çıxış edərək 17 İyun — tibb işçilərinin peşə bayramı münasibətilə səhiyyə sahəsində çalışan hər kəsi təbrik ediblər. Çıxışlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səhiyyəyə diqqət və qayğısı, Azərbaycan xalqının sağlamlığının qorunması yolunda atdıqları mühüm addımlar, ümumiyyətlə, ölkədə həyata keçirilən sosialyönümlü siyasət, ümummilli lider Heydər Əliyevin bu istiqamətdə müəyyənləşdirdiyi strategiyanın uğurla davam etdirilməsi xüsusi vurğulanıb. Natiqlər son illərdə Azərbaycan səhiyyəsinin inkişafından, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsindən, yeni tibbi texnologiyaların tətbiqindən və aparılan digər islahatlardan danışıblar.

Tibb İşçiləri Günü münasibətilə bir qrup tibb işçisi təltif edilib.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təltif edilən səhiyyə işçiləri adından ölkə başçısına minnətdarlıq ünvanlanıb.

Sonda «Görünməyən qəhrəmanlar: Ağxalatlılar» filmi nümayiş olunub.

Film 44 günlük Vətən müharibəsində ön və arxa cəbhədə əzmlə mübarizə aparan tibb işçilərinə ithaf olunub. Ekran əsərinin qəhrəmanları real həyatda Vətən müharibəsində əsgər və hərbçilərə xidmət göstərmiş tibb personalıdır.

Filmin ideya müəllifi Fariz Əhmədov, rejissoru Ayşad Səfərəliyev, ssenari müəllifi Seyran Mahmudoğlu, operatoru Zeynalabdin Həsənov, montajçısı Əsgər Rəhimov, səs rejissoru Hafiz İbrahimli, redaktoru Arif Məmmədov, prodüsserləri Fariz Əhmədov və Yalçın Verdiyevdir.

Tədbirdə Səhiyyə, Mədəniyyət, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və TƏBİB-in nümayəndələri, tibb işçiləri və kino xadimləri iştirak ediblər.

# Naxçıvanda Birinci Beynəlxalq Tibb Forumu keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikasında Birinci Beynəlxalq Tibb Forumu keçirilib.

Forumun açılış tədbirində əvvəlcə Ali Məclisin Sədri Vasif Talıbov, Azərbaycan Tibb Universitetinin (ATU) rektoru Gəray Gəraybəyli, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru Əziz Əliyev, Endoskopik Laparoskopik Cərrahiyyə Dərnəyinin fəxri sədri Cavid Avcı, Türkiyənin Yeditəpə Universitetinin rektoru Canan Aykut Bingöl, Qaradəniz Texniki Universitetinin rektoru Hamdullah Çuvalcı və forum iştirakçıları tibbi avadanlıqların və əczaçılıq məhsullarının sərgisinə baxıblar. Bildirilib ki, foruma 20-dən çox tədris və tibbi ləvazimat, dərman və qida məhsulları istehsalı və satışı həyata keçirən şirkət qatılıb.

Açılış tədbirində **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov** Birinci Beynəlxalq Tibb Forumunun iştirakçılarını qədim Azərbaycan torpağı Naxçıvanda salamlayaraq deyib ki, sağlam cəmiyyətin formalaşmasında səhiyyənin mühüm rolu vardır, ona görə tarixən tibb elminə, həkimlik sənətinə qayğı insanlığa qayğı kimi dəyərləndirilib. Müasir dövrdə ölkələrin inkişafında əhalinin sağlamlıq səviyyəsi və tibbi xidmətlə təminat əsas göstərici hesab olunur. Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyi dövründə bu məsələni daim diqqətdə saxlayıb, Azərbaycanda səhiyyə quruculuğu geniş vüsət alıb. Ulu öndərin əsasını qoyduğu səhiyyə islahatları ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikasında əhalinin sağlamlığının qorunmasını və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasını sosial-iqtisadi islahatların başlıca istiqaməti adlandıran Ali Məclisin Sədri deyib ki, müstəqillik illərində burada 200-dən artıq səhiyyə müəssisəsi tikilib, ən son tibbi avadanlıqlar quraşdırılıb. Müasir tələblər səviyyəsində qurulmuş xəstəxanalar muxtar respublika səhiyyəsini yeni inkişaf mərhələsinə çıxarıb. Görülən işlər nəticəsində bölgədə insan sağlamlığının başlıca şərti olan sanitar-epidemioloji vəziyyət sabitdir.




Ali Məclisin Sədri həmçinin muxtar respublikada səhiyyənin inkişafı üçün orta ixtisas və ali təhsilli kadr hazırlığından danışıb. Bildirib ki, 1999-cu ildə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin fəaliyyətə başlaması və ötən dövrdə keçdiyi böyük yol muxtar respublikada ixtisaslı həkim hazırlığı sahəsində mühüm mərhələdir. Naxçıvan Tibb Kollecində də müxtəlif ixtisaslar üzrə orta tibb işçiləri hazırlanır. Naxçıvanda icbari tibbi sığortaya keçid də əhalinin keyfiyyətli tibbi xidmətlərlə təminatına töhfə verir.

Vasif Talıbov Naxçıvanda keçirilən Birinci Beynəlxalq Tibb Forumunun faydalı olacağına inamını ifadə edib, forumun işinə uğurlar arzulayıb.

**Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev** çıxışında deyib ki, tibbi forumun Naxçıvan Muxtar Respublikasında keçirilməsi uzun illər ərzində qurulan müasir səhiyyə infrastrukturu və tibb təhsilinin keçdiyi inkişaf yolunun uğurlu yekunu kimi yüksək əhəmiyyətə malikdir. Naxçıvan Dövlət Universitetində təhsil və elmi tədqiqat işlərinin səviyyəsinin daha da yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində çoxsaxəli tədbirlərdən danışan rektor bildirib ki, forum çərçivəsində ATU-nun və xaricdən gələn həkim-mütəxəssislərin iştirakı ilə xəstələrin konsultativ müayinə, əməliyyat və müalicələrinin keçirilməsi də planlaşdırılıb.

**Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli** qalib xalqın nümayəndələri kimi Ulu öndər Heydər Əliyevin Vətəni Naxçıvanda belə bir forumda iştirakın qürurverici olduğunu deyib. O, ATU-nun inkişafından, onun maddi-texniki bazasının qurulmasında, yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında ümummilli liderin rolundan, bu gün Ulu öndərin siyasətinin ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıb. Bildirib ki, ATU-da kafedra və bölmələrin müasir avadanlıqlarla təchiz edilməsi ali tibb təhsilinə ölkə Prezidentinin qayğısının bariz nümunəsidir. Hazırda ATU bölgəmizin qabaqcıl tədris müəssisələrindən biridir. Dünyanın 20 ölkəsindən 80-ə yaxın elm və təhsil qurumları ilə hərtərəfli əməkdaşlıq edən universitet Naxçıvan Dövlət Universiteti ilə də anlaşma memorandumu imzalayıb. Rektor vurğulayıb ki, forumun iştirakçıları və mövzuların müxtəlifliyi təbabətin aktual problemlərinin həlli yolunda yüksək səviyyədə müzakirələrin aparılmasına imkan yaradacaq.

**Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru Əziz Əliyev** bildirib ki, Azərbaycanda tibb təhsilinin təkmilləşdirilməsi üçün dünyanın nüfuzlu təhsil mərkəzləri ilə əlaqələrin genişləndirilməsi məqsədilə 2015-ci ildə Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı yaradılıb. Universitetdə professor və müəllimlər tərəfindən tədris iki istiqamətdə — Müalicə işi ixtisası və Əczaçılıq sənayesi üzrə aparılır. Rektor deyib ki, bu forum həkimlərimiz üçün mühüm rol oynayacaq, onlara müasir müalicə protokolları ilə tanış olmağa və həmkarları ilə təcrübə mübadiləsi aparmağa imkan verəcək.

**Endoskopik Laparoskopik Cərrahiyyə Dərnəyinin fəxri sədri Cavid Avcı** təmsil etdiyi dərnəyin fəaliyyəti barədə danışıb, beynəlxalq səviyyədə həyata keçirdikləri layihələrdən bəhs edib. Qeyd olunub ki, Dərnək 20 ildən artıqdır, Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlıq edir. Forumdan sonra yeni əməkdaşlıq istiqamətlərinin açılacağını bildirən Cavid Avcı Naxçıvan Dövlət Universiteti ilə də əlaqələr qurulacağını diqqətə çatdırıb.

**Yeditəpə Universitetinin rektoru Canan Aykut Bingöl** deyib ki, Naxçıvanda olmaq və tibbi forumda iştirak etmək bizim üçün çox əhəmiyyətlidir. Tibb ictimaiyyəti pandemiya dövründə elmi araşdırmaların, məlumat mübadiləsinin, təhsilin və texniki inkişafın vacibliyinin şahidi oldu. Forum da beynəlxalq səviyyədə çox faydalı müzakirələrin və elm mübadiləsinin aparılmasına vəsilə olacaq. Bu baxımdan, Yeditəpə Universiteti bütün istiqamətlərdə əməkdaşlığa hazırdır.

**Qaradəniz Texniki Universitetinin rektoru Hamdullah Çuvalcı** bildirib ki, bu Universitetlə Naxçıvan Dövlət Universiteti arasındakı əməkdaşlıq, bugünkü forumda iştirak gələcəkdə birgə layihələrin icrası üçün geniş imkanlar açır. Tibbin inkişafında əsas məsələlərdən biri də avadanlıq təminatıdır. Tibbi avadanlıqların istehsalı, bu sahədə yerli mütəxəssis hazırlığı qarşıda duran əsas vəzifələrdəndir. Rektor təmsil etdiyi universitetin tibbi avadanlıqların istehsalı ilə bağlı həyata keçirdiyi layihələrdən danışıb, forumun bu baxımdan əhəmiyyətini vurğulayıb.

Sonda Naxçıvanın tanıtım videoçarxı nümayiş olunub.







## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### Azərbaycan Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu «PHŞ»

Travmatologiya şöbəsi üçün şöbə müdiri, travmatoloq-ortoped, ixtisas şifri (3227.01), tibb üzrə elmlər doktoru - 1.0
Artroplastika və artroskopiya şöbəsi üçün şöbə müdiri, travmatoloq-ortoped, ixtisas şifri (3227.01), tibb üzrə fəlsəfə doktoru -1.0
Artoplastika və artroskopiya şöbəsi üçün böyük elmi işçi, travmatoloq-ortoped, ixtisas şifri (3227.01), tibb üzrə fəlsəfə doktoru - 1.0

*Ünvan: A.Səhhət küç., 32*
*Telefon: 440-53-21*

### «Respublika Narkoloji Mərkəzi» PHŞ

Psixoloq - 1.0
Sosioloq - 2.0
Tibb bacısı (qardaşı) - 4.0
Laborant - 1.0
Rentgen-texnik - 1.0
Tibbi-statistik - 1.0
Provizor - 1.0
Əczaçı - 1.0

*Ünvan: Maştağa qəs., Axund Şeyx Hüseyn küç.,71*
*Telefon: 558-75-16*

### V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu «PHŞ»

***Mikrobiologiya şöbəsinin Virusologiya bölməsi***
Baş elmi işçi - 1.0
***İmmunologiya şöbəsinin İmmunoterapiya bölməsi***
Elmi işçi - 1.0

*Ünvan: C.Cəbbarlı küç., 35*
*Telefon: 594-73-45*

### Qaradağ GEM

Feldşer-laborant - 2.0

*Ünvan: Qaradağ ray., Nərimanov 20.*
*Telefon: 445-21-63*

### ATU-nun Stomatoloji Klinikası

Diş texniki -1.0

*Ünvan: Ə.Qasımzadə küç., 14*
*Telefon: 597-43-23*

### Respublika Psixiatriya Xəstəxanası PHŞ

Tibb bacısı (qardaşı) - 10.0
Rentgen-texnik - 1.0
Psixoloq - 2.0
Sosioloq - 2.0

*Ünvan: Şeyx Hüseyn küç., 69/71*
*Telefon: 455-10-91*

## Abunə kampaniyası başladı!

**2022-ci ilin II yarısı üçün abunə kampaniyası iyul ayının 31-dək davam edəcək. Bir nüsxənin 6 aylıq abunə haqqı 7 manat 50 qəpikdir. Abunə haqqı ya redaksiyada ödənməli, ya da qəzetin aşağıdakı bank hesabına köçürülməlidir:**

«Tibb qəzeti» VÖEN 1400410961
İBAN AZ43İBAZ 38090019449323220204
h/h38090019449323220204
Bank: Beynəlxalq SKB-nin Mərkəzi filialı
Kod: 805722 AZ03NABZ 01350100000000002944
BANK (VÖEN)9900001881
S W İ F T İBAZAZ 2 X




Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 230-cu otaq

Tel./fak: (012) 596-06-61

E-mail: tibbqazeti@mail.ru
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065
Tiraj: 9650